**AZƏRBAYCAN RESPUBLİKASININ QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİ**

**Q Ə R A R**

**№** 030/281

**Bakı şəhəri** "06" iyul **2023-cü il**

**Azərbaycan Respublikası ərazisinin başqa ölkələrdən keçə biləcək yoluxucu heyvan xəstəliklərindən qorunması məqsədilə tətbiq olunan bəzi məhdudiyyətlərin aradan qaldırılması haqqında**

Ümumdünya Heyvan Sağlamlığı Təşkilatının (ÜHST) 2020-2023-cü illər üzrə rəsmi məlumatlarına əsasən, Bosniya və Herseqovina Respublikasının Herseqovina-Neretva (Herzegovina-Neretva) inzibati ərazi vahidində blutanq, İsveçrə Konfederasiyasının Jura (Jura) inzibati ərazi vahidində Nyukasl, İraq Respublikasının Vasit (Wasit), Bağdad (Baghdad) əyalətlərində və Amerika Birləşmiş Ştatlarının (ABŞ) Şimali Dakota (North Dakota), Vaşinqton (Washington), Kaliforniya (California), Tennessi (Tennessee), Ayova (Iowa) ştatlarında isə qeydə alınmış yüksək patogen quş qripi xəstəliyi aradan qaldırılıb.

Belə ki, aradan qaldırılmış xəstəliklər üzrə, ÜHST-nin "Quruda yaşayan heyvanların sağlamlıq Məcəlləsi"nə əsasən, ləğv edilməsindən sonra gözləmə müddəti başa çatıb və xəstəlik baş vermiş ərazilərdə epizootik sağlamlıq statusu bərpa olunub.

Bununla əlaqədar, respublika ərazisinin həmin yoluxucu xəstəliklərdən qorunmasına dair Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin (bundan sonra – Agentlik) müvafiq qərarları ilə tətbiq edilmiş məhdudiyyətlərin aradan qaldırılması məqsədilə, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 13 noyabr tarixli 1681 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi haqqında Əsasnamə"nin 3.0.33-3-cü yarımbəndinə uyğun olaraq

**Qərara alıram:**

**1.** ÜHST-nin rəsmi məlumatı və "Quruda yaşayan heyvanların sağlamlıq Məcəlləsi" nəzərə alınaraq, sözügedən xəstəliklərin baş verməsinə görə Agentliyin müvafiq qərarları ilə tətbiq edilmiş aşağıdakı məhdudiyyətlər aradan qaldırılsın:

**1.1. Blutanq homorraji xəstəliyi üzrə:**

**1.1.1.** 2020-ci il 21 dekabr tarixli 91 nömrəli qərarla Bosniya və Herseqovina Respublikasının Herseqovina-Neretva inzibati ərazi vahidinə tətbiq edilmiş məhdudiyyət.

**1.2. Nyukasl xəstəliyi üzrə:**

**1.2.1.** 2022-ci il 18 mart tarixli 020/195 nömrəli qərarla İsveçrə Konfederasiyasının Jura inzibati ərazi vahidinə tətbiq edilmiş məhdudiyyət.

**1.3. Yüksək patogen quş qripi xəstəliyi üzrə:**

**1.3.1.** 2021-ci il 25 iyun tarixli 037/132 nömrəli qərarla İraq Respublikasının Vasit əyalətinə tətbiq edilmiş məhdudiyyət;

**1.3.2.** 2022-ci il 14 iyun tarixli 038/213 nömrəli qərarla İraq Respublikasının Bağdad əyalətinə tətbiq edilmiş məhdudiyyət;

**1.3.3.** 2022-ci il 12 aprel tarixli 023/198 nömrəli qərarla ABŞ-ın Şimali Dakota ştatına tətbiq edilmiş məhdudiyyət;

**1.3.4.** 2022-ci il 25 may tarixli 034/209 nömrəli qərarla ABŞ-ın Vaşinqton ştatına tətbiq edilmiş məhdudiyyət;

**1.3.5.** 2022-ci il 5 sentyabr tarixli 050/225 nömrəli qərarla ABŞ-ın Kaliforniya ştatına tətbiq edilmiş məhdudiyyət;

**1.3.6.** 2022-ci il 30 noyabr tarixli 069/244 nömrəli qərarla ABŞ-ın Tennessi ştatına tətbiq edilmiş məhdudiyyət;

**1.3.7.** 2022-ci il 21 dekabr tarixli 073/248 nömrəli qərarla ABŞ-ın Ayova ştatına tətbiq edilmiş məhdudiyyət.

**2.** Bu Qərarın 1-ci bəndinin icrasının təmin edilməsi ilə bağlı tədbirlərin həyata keçirilməsi üçün Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə məlumat verilsin.

**3.** Agentlik Aparatının İnformasiya təminatı və innovativ həllər şöbəsi bu qərar barədə məlumatın Agentliyin internet səhifəsində yerləşdirilməsini təmin etsin.

**4.** Bu Qərarın Agentliyin struktur bölmələrinə, Naxçıvan Muxtar Respublikasının Dövlət Baytarlıq Xidmətinə və aidiyyəti orqanlara göndərilməsi təmin edilsin.

**5.** Agentlik Aparatının İdxal və ixraca nəzarət şöbəsi qeyd olunan məhsulların ölkəmizə idxalını həyata keçirən hüquqi və fiziki şəxslərin bu qərarla bağlı məlumatlandırılmasını təmin etsin.

**Heyvan sağlamlığı şöbəsinin müdiri,**
**Respublikanın baş dövlət baytarlıq müfəttişi** **Qalib Əbdüləliyev**

Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyi • Food Safety Agency of the Republic of Azerbaijan
Baş Dövlət Baytarlıq Müfəttişi
Chief Veterinary Officer